# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 452** **Bakı şəhəri, 28 dekabr 2022-ci il**

**"Minimum istehlak səbətinin tərkibinə daxil olan bir sıra əsas** ərzaq mallarının və onların istehsalında istifadə olunan malların ölkə ərazisindən aparılmasının tənzimlənməsinə dair tədbirlər haqqında" **Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 18 mart tarixli 103 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Minimum istehlak səbətinin tərkibinə daxil olan bir sıra əsas ərzaq mallarının və onların istehsalında istifadə olunan malların ölkə ərazisindən aparılmasının tənzimlənməsinə dair tədbirlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 18 mart tarixli 103 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 279) aşağıdakı dəyişikliklər edilsin:

1. 4-cü hissədə "2022-ci" sözləri "2023-cü" sözləri ilə əvəz edilsin.

2. Həmin Qərara əlavə – "Azərbaycan Respublikasının gömrük ərazisindən aparılması müvəqqəti olaraq tənzimlənən malların Siyahısı" üzrə:

2.1. 10-cu sətir aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 10. | 0402-dən | Qatılaşdırılmış və ya şəkər və ya digər şirinləşdirici maddələr əlavə edilmiş süd və qaymaq (milk shake və sundae istisna olmaqla) |

2.2. 13-cü sətrin "Malın adı" sütununa "istixanada yetişdirilən" sözlərindən sonra "və (və ya)" sözləri əlavə edilsin;

2.3. 15-ci sətir aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 15. | Qrup 11 (1106 30 və 1108 12 000 0 istisna olmaqla) | Unüyütmə-yarma sənayesi məhsulları; səməni; nişastalar; inulin; buğda özü (08-ci qrupdakı məhsullardan narın və qaba üyüdülmüş un və toz, qarğıdalı nişastası istisna olmaqla) |

2.4. 16-cı sətir aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 16. | 1201, 1206 00,<br>1207 21 000 0,<br>1207 29 000 0,<br>1208,<br>1209 10 000 0,<br>1209 21 000 0,<br>1209 22, 1209 91,<br>1209 99,<br>1213 00 000 0,<br>1214 | Xırdalanmış və ya xırdalanmamış soya paxlaları; xırdalanmış və ya xırdalanmamış günəbaxan toxumları; toxumluq və digər pambıq toxumları; xardal toxumlarından başqa, yağlı bitkilərin toxumlarından və ya barlarından narın və qaba üyüdülmüş un; əkin üçün şəkər çuğunduru toxumları; qarayonca toxumları; üçyarpaq yonca toxumları; tərəvəz bitkilərinin toxumları; digər bitkilərin toxumları; emal olunmamış, xırdalanmış və ya xırdalanmamış, üyüdülmüş və ya üyüdülməmiş, preslənmiş və ya qranullar şəklində taxıl samanı və küləşi; qranullaşdırılmış və ya qranullaşdırılmamış şalğam, pazı (yarpaq çuğunduru, manqold), yem meyvəköklüləri, ot, qara yonca, yonca, qəpikotu, yem kələmi, acıpaxla və ya lupin, lərgə və analoji yem məhsulları |

2.5. 23-cü sətir aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 23. | 1516 20-dən | Bitki piyləri və yağları və onların fraksiyaları (pambıq yağı istisna olmaqla) |

2.6. 28-ci sətir aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 28. | Qrup 23 (2308 00 900 0 və 2309 10 istisna olmaqla) | Yeyinti sənayesinin qalıqları və tullantıları; heyvanlar üçün hazır yem (digər başqa yerdə adları çəkilməyən və ya daxil edilməyən, qranullaşdırılmış və ya qranullaşdırılmamış heyvan yemi üçün istifadə edilən bitki mənşəli məhsullar, bitki tullantıları və qalıqları və əlavə məhsullar, pərakəndə satış üçün qablaşdırılmış it və ya pişik yemləri istisna olmaqla) |

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

Xalq qəzeti .- 2022.- 30 dekabr.- S.6.